# “TARİXİ DEMOQRAFİYA” HAQQINDA

## *(Aydın Məmmədov, “Tarixi demoqrafiya”. Dərslik Bakı, 2019, 232 səh.)*



Bakı Dövlət Universiteti Tarix fakültəsinin tələbələri dəyərli bir dərs vəsaiti əldə etmişlər. Dərslikdə ilk dəfə olaraq, müəllifin yazdığı kimi, mənbəşünaslıq bazası əsasında Azərbaycanın qədim və orta əsrlər dövründə şəhərlər və əhalisinin demoqrafiyası, o cümlədən, Azərbaycan tarixşünaslığı müstəvisində tarixi demoqrafiya məsələləri araşdırılmışdır. Dərslikdə həmçinin Şərq və Qərb ölkələrinin ibtidai cəmiyyətdən başlayaraq, çağdaş dövrədək əhali məskunlaşması ilə bağlı xüsusiyyətləri, o cümlədən, Azərbaycan xalqının tarixən formalaşmış demoqrafik təfəkkür, adət-ənənə və inancları öz əksini tapmışdır. Deməli, bu vəsait təkcə tələbələr üçün deyil, həm də kitabda öz əksini tapmış həmin problemlərlə maraqlanan geniş oxucu kütləsi üçün də faydalı ola bilər.

Bir neçə söz kitabın müəllifi haqqında: BDU-nun tarix fakültəsinin müəllimi, tarix elmləri namizədi, dosent Aydın Məmmədov çox zəngin, hərtərəfli biliyə malik fenomen Azərbaycan ziyalısıdır. O, ədəbiyyat, ilahiyyat, fəlsəfə, riyaziyyat, kimya, tibb və digər elm sahələrinin mükəmməl biliyə malik mütəxəssisləri ilə fikir mübadiləsi edərək, onları heyrətləndirə bilir. Tələbələrinin sevimlisi olan Aydın müəllim zəngin tarixi mənbələr əsasında qələmə aldığı “Tarixi demoqrafiya” dərsliyini məzunu olduğu, 1919-cu ildə təsis edilmiş Bakı Dövlət Universitetinin (bu təhsil ocağı Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır) yaranmasının 100 illik yubileyinə ithaf etmişdir.

Dərslik giriş və on beş hissədən ibarətdir. Birinci hissə “Tarixi demoqrafiyanın predmeti və vəzifələri. Demoqrafiya və tarix elmi” adlanır. Burada göstərilir ki, tarixi demoqrafiya fənni əhali məskunlaşması problemlərini tarixin ayrı-ayrı inkişaf dövrləri ilə paralel olaraq öyrənir. Bu da ictimai-iqtisadi, sosial proseslərin bəhs olunan dövrün xarakterik xüsusiyyətləri fonunda elmi-obyektiv surətdə dərkinə imkan yaradır. Bu fəsildə müəllif e. ə. IV əsrdə yaşamış antik yunan alimləri Əflatun və Aristotelin ilk dəfə əhalinin sayı və tənzimlənməsi məsələlərinə dair irəli sürdikləri konsepsiyalarından bəhs etmiş və onlara öz münasibətini bildirmişdir. Yunan alimlərinin əsərlərinə istinad edən Aydın müəllim qədim Çin filosofuna da müraciət etmiş, dünya ölkələrində, o cümlədən, qədim Azərbaycanda demoqrafiya məsələlərindən bəhs edən tarixi mənbələri araşdırmış, maraqlı müqayisələr aparmışdır. Bu hissədə müəllifin gəldiyi nəticələrdən biri demoqrafiya elminin öz başlanğıcını J.Qrauntun 1662-ci ildə nəşr etdirdiyi “Londonda ölümə dair təbii və siyasi müşahidələr” adlı əsərindən götürdüyü qənaətinə gəlməsidir. Azərbaycan demoqrafiyasına dair beynəlxalq aləmə təqdim olunan, 1919-cu ildə Parisdə fransız dilində çap olunaraq Cenevrə Sülh Konfransı iştirakçılarına paylanmış adres-kalendarı da ilk tarixi kitab kimi dəyərləndirmişdir. Müəllif Azərbaycanın görkəmli marifçilərinin, o cümlədən, H.B.Zərdabinin, M.(Vəlili) Baharlının əhali artımı ilə bağlı fikirlərini də təhlil etmişdir.

Dərsliyin ikinci hissəsi “Tarixi demoqrafiya və əhali məskunlaşması” adlanır. Burada müəllif öz elmi mülahizələrini görkəmli tədqiqatçıların fikirləri ilə əsaslandırır və eyni zamanda onlara öz münasibətini də bildirir. Onun xüsusən bir-birini inkar edən fikirlərə nünasibəti diqqətəlayiqdir (səh.22). Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, müəllifin Azərbaycanda müxtəlif millətlərdən olan əhalinin dinc-yanaşı yaşamasının ölkəmizin multikultural dəyərləri ilə seçilən ölkə olmasından irəli gəldiyini vurğulaması təqdirəlayiqdir.

Kitabın bu hissəsində dünyanın ən çox əhaliyə malik ölkəsindən biri olan Çindən, onun alim və mütəfəkkirlərinin əhali demoqrafiyası barədə fikirlərindən də bəhs olunur, statistik rəqəmlər, cədvəllər verilir. Çinin demoqrafiya tarixində ilk hesab edilən demoqrafiq əsər şərh olunur. Burada müəllifin gəldiyi nəticə maraqlıdır: Əhali və onun inkişaf dinamikası mürəkkəb bir problemdir və onun bütün cəhətlərini tam şəkildə öyrənmək tədqiq etmək qədim dövrlərdə mümkün deyildi. Lakin qədim mütəfəkkirlərin, alimlərin buna səy göstərmələri bu işin daim aktual olduğunu sübut etməkdədir.

Dərsliyin üçüncü hissəsi, “İbtidai-icma quruluşu dövründə əhali artımının xüsusiyyətləri” adlanır. Bu dövrdə insanın istifadə etdiyi istehsal vasitələrinin primitiv olması onu təbiətdən asılı edirdi. Müəllif dünya alimlərinin tədqiqatlarından bəhrələnərək bu dövr haqqında, əhalinin artımı ilə bağlı məlumatları diqqətə çatdırır. Burada tanınmış arxeoloq alim M.Hüseynovun tədqiqatını diqqətə çatdırır. Azıx mağarasından bəhs edir. O qədim insan məskənləri barədə müxtəlif fikirli alimlərə öz münasibətini bildirir. (səh.30) Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycan alimindən bəhs edərkən, alimin tam adı göstərilsə idi, yaxşı olardı. Məmmədəli Hüseynov, (nəinki M.Hüseynov).

Təqdirəlayiq haldır ki, dünyada qədim insan məskənlərindən biri olan Azıx mağarasından bəhs edərkən Aydın müəllim dünyada olan bir sıra qədim insan məskənləri barədə də məlumat vermişdir. Bununla o, tələbələrin qədim insan məskənləri barədə elmi biliklərini zənginləşdirmiş olur. Fransa ərazisində yerləşən ən qədim və elmi nöqteyi-nəzərdən böyük maraq kəsb edən Terri-Amota düşərgəsi haqqında məlumat dediyimizə misal ola bilər. Bu hissədə ibtidai cəmiyyətdə insanların az artdığı, çətin yaşayış şəraitinə görə 18-20, nadir hallarda 50 yaşa qədər yaşadıqları faktı maraqlıdır. Müəllif burada da statistik rəqəmlərə geniş yer vermişdir.

Dördüncü hissə “İbtidai cəmiyyətdə əhalinin məskunlaşması” adlanır. Bu dövrdə əkinçilik və maldarlığın meydana gəlməsi ilə insanların artım sürəti nəzərə çarpır. E.ə.VII minillikdə əkin və otlaq sahələri kiçik Asiyada meydana gəlmiş, buradan insanlar yer kürəsinin hər tərəfinə yayılmışlar. Bu fəsildə daha əlverişli yaşayış yerləri və əhalinin artımı barədə məlumat verilir, dünya alimlərinin tədqiqatları təhlil edilir. O cümlədən, Azərbaycan alimi M.Hüseynovun və digər alimlərin tədqiqatları diqqətə çatdırılır, Azərbaycanın Naxçıvan, Qarabağ, Qazax bölgələrində artıq orta paleolit dövründən qədim insanların məskunlaşdığı göstərilir.

İnsanların artıq təbiət hadisələrini öyrənərək məskunlaşdığı fikri müəllifin gəldiyi nəticədir.

Dərsliyin beşinci hissəsi “Quldarlıq cəmiyyətində əhali artımının xüsusiyyətləri” adlanır. Qul-darlıq cəmiyyətinin qanunauyğunluq-larından bəhs edən müəllif əhali ar-tımını diqqətə çatdırır, ucuz işçi qüvvəsini artırmaq marağının olduğu göstərilir. Bunun səbəbini tədqiqata cəlb etdiyi mənbələrə əsasən izah edir, eyni zamanda dağıdıcı müharibələrin, həm də Azərbaycanın demoqrafik durumuna mənfi təsir göstərdiyini diqqətə çatdırır. E.ə. IX əsrin son rübündə assurların Mannanın Şərq sərhədlərində dağıntılar və qırğınlar




törətdiyi və.s haqqında məlumat verən müəllif mənbələrə müraciət edir. Tarixi mənbələr üsyan edən qulların kütləvi surətdə qırılmasından xəbər verməklə də quldarlıq dövrünün demoqrafik xüsusiyyətlərini öyrənməyə kömək edir. Bu fəsildə müəllif müharibələr, üsyanlar nəticəsində əhalinin sayının kəskin şəkildə azalmasına görə bir vaxtlar əhali artımının əleyhinə olan Platon və Aristotelin öz fikirlərini dəyişməyə məcbur olduqlarını diqqətə çatdırır.

Altıncı hissədə “Quldarlıq cəmiyyətində əhali məskunlaşması”ndan bəhs olunur. Burada qədim Yunan və Roma dövlətləri xüsusi qeyd olunur. Bu dövrün əlamətdar xüsusiyyəti müstəmləkəçiliyin əmələ gəlməsi ilə izah olunur. Əhalinin artması ilə bir çox koloniyalar yaranırdı. Əsasən Aralıq dənizi sahilləri, Afrikanın şimalı, Mərmərə və Qara dəniz, Qafqaz sahillərində, Karfagen dövlətində və.s əhalinin böyük əksəriyyətinin qullar olduğunu, koloniyaların yaranmasının səbəbləri müxtəlif alimlərin əsərlərində yazıldığını göstərən müəllif sonda quldarlıq sisteminin yeddi əsas xüsusiyyətini izah edir.

Dərsliyin yeddinci hissəsində “Feodalizm dövründə də əhali artımının xüsusiyyətləri”ndən bəhs olunur. Məhsuldar qüvvələr artdıqca feodal cəmiyyətində əhalinin təbii artımının baş verdiyini göstərən müəllif ayrı-ayrı illəri müqayisə etmiş, əhali artımını rəqəmlərlə göstərmişdir. Məlum olur ki, məsələn, Almaniyanın timsalında bu dövrdə yeni şəhərlər yaranmış, köhnələri genişləndirilmişdir. Müəllif mənbələrə əsasən bunu da diqqətə çatdırır ki, feodalizm cəmiyyətində əhalinin artım sürətinin yüksək olduğunu söyləmək olmaz, sadəcə quldarlıq quruluşu ilə müqayisədə bu sürət kifayət qədər yüksək idi. Əhalinin əsas hissəsinin kəndlilərdən ibarət olması da bunu şərtləndirirdi. Bəzi feodal dövlətlərinin qanunvericilik aktlarında nigaha girmənin kəndlilər üçün icbari olması da məlumdur. Əhali demoqrafiyası məsələsində feodalizm dövründə nigah diplomatiyasının olduğunu qeyd edən müəllif misallar gətirir, o cümlədən, Azərbaycanda xanlıqlar dövrünü, ondan çox-çox əvvəl Alban hökmdarı Cavanşiri xatırladır. Burada Avropa dövlətlərində olan qanunlardan, Avropa ölkələrində qadınların hüququnu qoruyan bir sıra digər qanunlardan da bəhs olunur. Bu dövrdə baş verən kütləvi qırğınlara səbəb olan hadisələrlə əlaqədar məlumatlar diqqət çəkəndir. Müəllif ayrı-ayrı ölkələrdə baş verən hadisələri, illərlə, rəqəmlərlə diqqətə çatdırmışdır. Nəticə olaraq əhalinin təbii artımının qanunauyğunluqlarını araşdırmaqla Qərb və Şərq ölkələrində, o cümlədən, Azərbaycanda fərqli xüsusiyyətləri müəyyən etmişdir.

Dərsliyin səkkizinci hissəsində “Feodalizmin demoqrafik xüsusiy-yətləri” barədə bilgi verilmişdir. Feoda-lizm dövründə fasiləsiz müharibələr ölüm sayını artırdığı üçün təbii ki, əhalinin artımı yüksək ola bilməzdi. Müəllif bu məsələni Almaniya ölkəsinə aid olan rəqəmlərlə izah edir. Fransız alimi B.Urlanisin gəldiyi nəticələri göstərən müəllif əhali demoqrafiyasına təsir edən mənfi amilləri aclıqlar, epidemiyalar, kəskin güclənmiş feodal istismarı, tibbi yardımın çatışmazlığı və s. nəticəsində ölüm halının artdığını diqqətə çatdırır. Bununla belə Avropanın bəzi ölkələrində əhali artımının baş verdiyi halların istisna olmadığı göstərilir.

Doqquzuncu hissə, “Azərbaycanın qədim və orta əsrlər şəhər və əhalisi tarixi mərhələlərdə” adlanır. Bu hissədə həmçinin qədim və zəngin tarixi olan Azərbaycandan bəhs edən mənbələr araşdırılmışdır. Assuriya hökmdarı Aşşurbanipalın (e.ə.669-631) Manna dövlətinə basqınlarını təsvir edən yazısı, yaxud I Argiştinin oğlu II Sardurinin (e.ə.760-730) Mannanın Puladi vilayətinə qarətçi yürüşlərindən bəhs edən söylədikləri və başqa mənbələr tarixin yaddaşına bu dövlətin çoxlu sayda əhalisinin, yaşayış məntəqələrinin olduğundan xəbər verir. Bu hissədə Naxçıvan, Təbriz kimi Azərbaycan şəhərlərinin tarixi, demoqrafik xüsusiyyətlərindən geniş bəhs olunur.

*(Davamı 15-ci səhifədə)*

# "TARİXİ DEMOQRAFİYA" HAQQINDA

( , . ,

*(Əvvəli 13-cü səhifədə)*

Müəllif ərəb mənbələrindən istifadə etməklə ilk dəfə olaraq mənbəşünaslıq bazası əsasında Azərbaycanın qədim və orta əsrlər dövründə şəhərləri və əhalisinin demoqrafiyasını araşdırmışdır. Azərbaycanın orta əsrlərdə mövcud olmuş Bərdə, Beyləqan,Ərdəbil, Dərbənd və s. şəhər və kəndləri yaşayış məntəqələri və əhalisi haqqında ətraflı məlumat vermişdir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Azərbaycan Səfəvilər dövlətində döyüşkən, cəsur əfşar və qacar tayfalarının Azərbaycandan Mərv və Türkmənistan ərazilarinə, Qacarların Astrabaddan Mazandarana köçürülməsi hadisəsi də tarixi demoqrafik proseslərə aid edilə bilər. Dərslikdə diqqəti cəlb edən cəhətlərdən biri də Azərbaycan şəhərlərinin əksəriyyətinin vaxtilə mövcud olmuş, müharibələr nəticəsində dağıdılmış yaşayış məskənlərinin yerində bərpa edildiyi (ilk dəfə tikilmədiyi) barədə müəllifin fikirləridir. Təbriz, Şamaxı, Beyləqan, Bərdə və digər şəhərlərini nü-munə olaraq göstərir. Müəllif belə nəticəyə gəlir ki, bu şəhərlərin əhalisi tarixi inkişafın ayrı-ayrı dövrlərində bir sıra ictimai-siyasi, sosial-iqtisadi amillərin təsiri ilə artıb-azalmışdır.

Dərsliyin onuncu hissəsi "Azərbaycan və Şərq alimlərinin demoqrafik baxışları" adlanır. Müəllif ilk olaraq Şərqin böyük dühalarından biri, həkim, filosof Əbu Əli Hüseyn İbn Abdulla və əsərləri haqqında ətraflı məlumat vermiş, eyni zamanda onun maraqlı demoqrafik baxışlarından da bəhs etmiş, demoqrafik baxışlarının formalaşmasında sələfi Aristotelin əsərlərinin təsirinin də olduğu qənaətinə gəlmiş, özünün də fərqli fikirləri olduğunu göstərmişdir. Təsadüfi deyil ki, görkəmli Azərbaycan alimi Nəsirəddin Tusi İbn Sinanı "ustad" adlandırmışdır. O, ölüm hadisəsinə İbn Sinanın mövqeyindən yanaşmış və belə yazmışdır: "Fəlsəfədə deyilir ki, hər yaradılan məhv edilə bilər, deməli, məhv olmaq istəməyən yaradılmamasını istəmiş olur". Hər iki alim ölümü insanların normal say tərkibini qoruyub saxlayan, demoqrafik prosesləri tənzimləyən qanunauyğun hadisə hesab etmişdir. Müəllif daha sonra oxucunu Şərqin digər alimlərinin, Əbu Nəsr Fərabi, Nizami Gəncəvi, İbn Xəldun, Əbdürrəşid Bakuvi, Zəkəriyyə Qəzvini, Məhəmməd Füzulinin demoqrafik fikirləri, yaşadıqları dövrün əhalisi, kənd və şəhərləri haqqında baxışları ilə tanış etmişdir.

Onbirinci hissə "Azərbaycan tarixşünaslığında tarixi demoqrafiya məsələləri" adlanır. Müəllif ilk növbədə haqlı olaraq SSRİ dönəmində respublikada yazılan tarixə aid bütün əsərlərin bolşevik ideologiyasına xidmət etdiyini bildirir və oxucunu həmin dövrün alimləri ilə tanış edir. Tariximizə dair əsərlərinin müsbət və mənfi cəhətlərini təhlil edir, münasibətini bildirir. Azərbaycan tarixşünaslığının Paxomov, Sisoyev, Bartold, A.Ələkbərov, Qaraqaşlı, Cəfərzadə, Qazıyev, Leviatov, Əlizadə və digər alimlərin əsərlərindən bəhs edir, bu əsərlərdə müsbət cəhətləri diqqətə çatdırır. Əsərdə Azərbaycan alimi Ziya Musa oğlu Bünyadovun misilsiz xidmətləri əksini tapmış "Azərbaycan VII-IX əsrlərdə" kitabında Azərbaycan əhalisinin türk-yerli aborigenləri olduğu fikrinin qiyməti xüsusi olaraq göstərilir. Sonda müəllif çağdaş tarixşünaslığın görkəmli alimlərindən professor A.İsgəndərov, A.Pasayev, A.Xəlilov, S.Tohidinin əsərlərində tarixi demoqrafiya problemlərinin geniş işıqlandırıldığının öz əksini tapdığını diqqətə çatdırmışdır.

Onikinci hissə "Azərbaycan xalqının qədim inanc, adət və mərasimlərində demoqrafik baxışlar" adlanır. Müəllif çox zəngin araşdırmalar apararaq xalqımızın inanc, adət və mərasimlərini demoqrafik baxışlarla əlaqələndirmişdir. Məsələn, qədim inanclarımızdan olan həyat ağacına doğum, məhsuldarlıq ilahəsi kimi baxıldığı, "səni görüm ağac kimi min budaq olasan" alqışının şumerlərdə də işləndiyi xatırlanır və s. Burada avropalı alim M.Matyenin fikirləri də diqqətə çatdırılır. Azərbaycan alimlərinin, o cümlədən də, Mirəli Seyidovun mifoloji tədqiqatları xatırlanır. Mifoloji folklor nümunələrinə müraciət edən müəllif alimlərin tarixi demoqrafiyanın mühüm tədqiqat sahələrindən biri olan məskunlaşma hadisəsini daşların və torpağın xüsusiyyəti ilə sıx şəkildə əlaqələndirdikləri barədə olan əsərlərini təhlil edir. Dərsliyin bu hissəsində ayrı-ayrı türk xalqlarının qədim inanc və adətlərindən də bəhs olunur.



Müəllif haqlı olaraq yazır ki, əcdadlarımızın ailəcanlığı, uşaqlara hədsiz sevgisi və qayğısı inanclarımızda öz geniş əksini tapmışdır. Bununla əlaqədar dərslikdə çoxlu sayda nümunələr verilir, eyni zamanda bölgələrimizdə yaranmış demoqrafik baxışlara dair maraqlı materiallar diqqətə çatdırılır. Nəticə olaraq müəllif bu qənaətə gəlir ki, Azərbaycan xalqının qədim inanc, adət və mərasimlərində ailə, övlad, doğum və artımla bağlı ayinlərin zənginliyi bəşər sivilizasiyasına zəngin töhfələr vermiş xalqımızın demoqrafik baxışlarının da zənginliyinin, qədimliyinin sübutudur.

On üçüncü hissədə "Yeni dövrdə əhalinin demoqrafik xüsusiyyətləri"ndən bəhs olunur. Bu dövrün, yəni XVIII-XIX əsrlərin demoqrafik proseslərindən bəhs edən müəllif ayrı-ayrı ölkələrdə istehsalın inkişafı ilə əhalinin artım sürətinin nəzərə çarpdığını göstərir. Statistik rəqəmlərə əsaslanaraq, orta əsrlərə nisbətən ayrı-ayrı Avropa ölkələrində, xüsusən İngiltərədə bu cəhətin yüksək olduğu fikrinə gəlir. Müəllif bunu da qeyd edir ki, bütün dövrlərdə yalnız müharibələr, epidemiyalar əhalinin təbii artımına mane olmuşdur. Bu hissədə İngiltərə, Fransa alimlərinin, eləcə də rus alimi M.V.Lomonosovun əsərlərindən geniş bəhs edilmişdir. Diqqətə çatdırılır ki, Rusiyada əhali məskunlaşmasına dair ilk qiymətli əsər M.V.Lomonosovun "Rusiya xalqının artıb-törəməsi və qorunub-saxlanılması" adlı məktubudur. Müəllif XIX əsrin əvvəllərində Azərbaycana siyasi maraqların artmasından bəhs edərək bu tarixdə baş vermiş Rusiyadan, İrandan və Türkiyədən köçürülmə siyasətini diqqətə çatdırmışdır. Ermənilərin Türkiyədən, İrandan, rusların Rusiyadan, almanların Rusiyaya mühacirəti, oradan cənubi Qafqaza köçürülməsi kimi tarixi hadisələrdən bəhs olunmuşdur. Demoqrafik proseslərə təsir göstərdiyini geniş şərh etmişdir. Həmçinin XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırımdan bəhs edən müəllif əhalinin kütləvi surətdə qırılmasını, kəndlərin dağıdılmasını xatırlatmışdır.

Sonda müəllif bu nəticəyə gəlir ki, Azərbaycanda cərəyan edən ictimai-siyasi hadisələrin demoqrafik proseslərə ciddi təsir göstərməsi, tarixi və demoqrafik proseslərin bir-biri ilə sıx və qarşılıqlı surətdə inkişaf etməsini göstərir.

On dördüncü hissə "İkinci Dünya Müharibəsi illəri, ondan sonrakı dövrdə demoqrafik proseslər və Azərbaycan" adlanır.Demoqrafik statistika göstərir ki, İkinci Dünya müharibəsində Azərbaycan sovet respublikaları və dünya ölkələri ilə müqayisədə ən çox əhali itkisinə məruz qalan ölkə olmuşdur. Müəllif bunu araşdırmalar nəticəsində, rəqəmlərlə izah etmişdir. Demoqrafik proseslərə İkinci Dünya Müharibəsi illərindən başlayaraq 1950-ci ilə qədər, xüsusilə, 1944-1945-ci illərdə SSRİ-nin qərbində yaşayan bir çox etnosların öz torpaqlarından Qazaxıstana, Orta Asiyaya və Sibirə sürgün olunması da ciddi təsirini göstərmişdir. Məlumdur ki, bu, Stalinin milli ayrıseçkilik siyasəti nəticəsində baş vermişdir. Müəllif bu faktı da diqqətə çatdırır ki, qonşu Gürcüstanda və Ermənistanda müharibə dövründə mülki əhalinin sayı nəinki azalmamış, hətta bir qədər artmışdır. Müharibə illərində "Böyük Ermənistan" xülyasında olan ermənilər İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istədilər və onların Azərbaycan ərazisinə yerləşdirilməsinə cəhd etdilər. Sonrakı hadisələr kitabın bu bölməndə öz geniş əksini tapmışdır. Bu hissədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı və "Daşnaqsütyun" partiyasının XVI konqresinin qəbul etdiyi qərarlar da şərh olunmuşdur. Müəllif Azərbaycana qarşı zaman-zaman aparılan etnodemoqrafik siyasətin haqlı olaraq beynəlxalq miqyasda araşdırılmasına ehtiyac olduğunu vurğulamışdır. Və qeyd etmişdir ki, Azərbaycan müstəqil dövlətdir, ölkə rəhbərliyi milli azlıqların mədəni inkişafına xüsusi qayğı göstərməkdədir.

Sonuncu, on beşinci hissə "Müasir dünyanın demoqrafik problemləri. Qlobal problemlər və əhali artımı" adlanır. Burada Aydın müəllim ilk öncə Alman alimi və filosofu, "ekologiya" termininin müəllifi Ernest Hekkelin "Təbii yaradılış tarixi" kitabı haqqında məlumat verir. Alimin fikirlərinin demoqraf alimləri düşünməyə vadar etdiyini vurğulayır. Bunun səbəbi isə son dövrlər ətraf mühitin korlanması və bunun demoqrafik proseslərə ciddi təsir göstərməsidir. Alim meşələrin son dövrlərdə azalmasını Yer kürəsində bütün canlıların normal həyatını təhlükə altında qoyan ciddi səbəblərdən hesab edir.

Digər amilləri şərh edən müəllif dünyanın Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yüksək artım sürətindən bəhs edir, XX əsrin 60-cı illərindəki demoqrafik partlayışı bununla əlaqələndirir. O, göstərir ki, dünya əhalisinin sayı artdıqca əhalinin dinamikliyi və təbiətə təsiri də artır. Bunu da nəzərə almaq lazımdır ki, demoqrafik siyasət hər bir suveren ölkənin öz səlahiyyətlərinə daxil olsa da, son nəticədə konkret bir ölkədə yaranan gərginlik bütün dünya iqtisadiyyatına təsir göstərir. Fikrimizcə "Dünyada iqtisadi böhran" termini belə hallarda yaranır. Müəllifin bu hissədə mövzu ilə əlaqədar verdiyi "Əhali artımının dinamikası və proqramı", "Demoqrafik partlayışların əsas səbəbləri", Problemin həlli yolları", "Türkdilli xalqların müasir demoqrafik göstəriciləri" və digər yarım başlıqlar problemi geniş şərh etmişdir.

Dəyərli dərslik olan "Tarixi demoqrafiya" kitabının elmi redaktoru BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, tarix elmləri doktoru, professor Anar İskəndərov, rəyçi BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor Məmməd Fətəliyevdir.



***Tahirə HSSSSSNZADSS***
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun baş elmi işçisi, tarix elmləri doktoru.***